# İlk neftin əldə olunmasından 20 il ötür



*Fevralın 18-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağında "Çıraq"dan sonra ikinci hasilat platforması olan "Mərkəzi Azəri"dən ilk neftin əldə olumasının 20 illiyi qeyd edilib. Bu barədə "BP-Azerbaijan" şirkətindən məlumat verilib.*

18 fevral 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev yeni inşa olunmuş "Mərkəzi Azəri" hasilat, qazma və yaşayış platformasına gedərək AÇG-nin tammiqyaslı işlənməsinin başlandığını simvolizə edən ilk neftin əldə olunması ilə bağlı rəsmi tədbirdə iştirak edib. "Mərkəzi Azəri" AÇG-nin hasilat salnaməsinin aparıcı layihəsidir. Yataqdakı bütün platformalar arasında ən yüksək hasilat göstəricisi ümumilikdə 152 milyon ton (1,1 milyard barel) neft təşkil edir.

2024-cü ildə "Mərkəzi Azəri" bütün əməliyyatlarına təhlükəsiz və etibarlı şəkildə davam edərək gündəlik 97 min barel orta hasilat göstəricisi ilə AÇG platformaları arasında liderliyini qoruyub.

"Mərkəzi Azəri" hasilat, qazma, yaşayış platforması, ona körpü ilə birləşmiş kompressor və suvurma qurğusu ilə birlikdə Xəzər dənizinin ən böyük komplekslərindən biridir. Bu kompleks AÇG-dəki digər platformalara və qurğulara vacib əməliyyatlar mərkəzi kimi xidmət göstərir, qabaqcıl texniki imkanları sayəsində yataqda əməliyyatların təhlükəsiz və etibarlı aparılmasını təmin edir.

Hazırda kompleksdə 210-a yaxın işçi çalışır, onların 96 faizi azərbaycanlı mütəxəssislərdir. Platformada ümumilikdə 43 quyu istismar edilir ki, bunlardan 28-i hasilat, 9-u qaz injektor quyusu, 5-i suvurma, biri isə şlamların laylara vurulması üçün quyudur.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

